***Ramazan Əsgərxanov, Sadiq Məhərrəmov.*** Müqavilə azadlığı: hüquq və azadlıq arasındakı inkişaf // Azərbaycan Hüquq Jurnalı. 2024 (№3), s. 168-178. DOI: 10.61638/AQZM4307

# MÜQAVİLƏ AZADLIĞI: HÜQUQ VƏ AZADLIQ ARASINDAKI İNKİŞAF

RAMAZAN ƏSGƏRXANOV*, SADİQ MƏHƏRRƏMOV**

**Annotasiya**

*Məqalədə mülki hüququn əsas prinsiplərindən biri olan müqavilə azadlığı prinsipinin hüquqi və fəlsəfi təhlili aparılmışdır. Müəlliflər müqavilə azadlığını təkcə bir prinsip olaraq deyil, həmçinin nəzəriyyə olaraq təhlil edirlər. Müqavilə azadlığı ilə bağlı indiyə qədər aparılan tədqiqatlarda bu anlayışa sadəcə bir prinsip olaraq yanaşılmış, onun fəlsəfi və tarixi aspektləri kənarda qalmışdır. Roma müqavilələr hüququndan başlanğıcını götürən müqavilə azadlığı konsepsiyası həm nəzəri, həm də praktiki əhəmiyyətə malikdir. Müqavilə azadlığı ilə bağlı mülki hüquq ədəbiyyatlarında müxtəlif nəzəriyyələr qeyd edilmişdir, məhz həmin nəzəriyyələrin hüquqi təhlilləri məqalədə xüsusi olaraq vurğulanır. Azərbaycan Respublikasının mülki hüquq sistemi artıq çağdaş dövrün tələbləri ilə ayaqlaşır. Bu səbəbdən də məqalədə müqavilə azadlığı prinsipinin müasir təhlili aparılmışdır. Azərbaycan Respublikasının mülki qanunvericiliyində müqavilə bağlamaq məcburiyyəti başlığı altında hər hansı müddəa nəzərdə tutulmamışdır. Lakin məqalədə müqavilə bağlamaq məcburiyyəti müddəası ilə müqavilə azadlığının qarşılıqlı əlaqəsi və təsirləri qeyd edilmişdir. Həmçinin İsveç və Türkiyə mülki hüquqlarında əksini tapan dürüst davranma prinsipi ilə müqavilə azadlığı prinsipinin qarşılıqlı əlaqəsi qeyd edilmişdir.*

**Açar sözlər:** *Roma müqavilələr hüququ, müqavilə azadlığı prinsipi, formal-fərdi nəzəriyyə, material-teoloji nəzəriyyə, müqavilə bağlamaq məcburiyyəti, vicdanlılıq prinsipi.*

## *I. Giriş. Müqavilə azadlığı: anlayışı və hüquqi tarixçəsi*

İlkin olaraq qeyd etmək lazımdır ki, hüquq elmində prinsiplərin özünəməxsus yeri və rolu vardır. Hər bir hüquq sahəsində olduğu kimi mülki hüquqda da prinsiplər ana xətt olaraq keçməkdədir. Hüququn ümumi prinsipləri ilə yanaşı sahəvi prinsipləri də vardır. Hüquq ədəbiyyatlarında hüququn ümumi prinsipləri dedikdə, adi hüquq qaydaları üçün mənbə rolunu oynayan və hüquq sistemini özündə əks etdirən dəyərlərdir [9, s. 173].

Prinsip sözü latın dilində "principium" sözündən götürülmüşdür, mənası başlanğıc ideya, rəhbər müddəa deməkdir. Hüququn prinsipləri həm onun üçün, həm də onun hər bir sahəsi üçün sanki bir mayak rolunu oynayır. Bu prinsiplərin pozulması ilə həyata keçirilən istənilən fəaliyyət hüquqa uyğun deyildir. Məhkəmə hüquq tətbiq edən orqandır. Ədalət mühakiməsinin həyata keçirilməsində prinsiplərin rolu böyükdür. Prinsiplər rəhbər tutularaq məhkəmə qanuni, əsaslı və ədalətli qərar çıxarır [10, s. 35].

Mülki hüququn prinsiplərindən biri olan mülki hüquq subyektlərinin iradə sərbəstliyi ilə müqavilə azadlığı qarşılıqlı əlaqədədirlər. Mülki hüququn subyekti olan hüquqi və fiziki şəxslər istənilən halda iradələrini bəyan etməkdə, göstərməkdə sərbətdirlər. Müqavilə azadlığı prinsipinin hüquqi xüsusiyyətlərini aydınlaşdırmadan öncə söz birləşməsində yer alan hər bir sözün mənasının müəyyən edilməsi mühüm olan məsələlərdən biridir. Müqavilə anlayışı

* Magistrant / Ankara Univeristeti Hüquq fakültəsi / email: ramazanasgerkhanov@gmail.com
** Məhkəmə iclas katibi / Xankəndi Şəhər Məhkəməsi / email: smeherremov206@gmail.com

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra AR MM) 389.1-ci maddəsinə görə, mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır. Müqavilə ilə bağlı qanunvericinin təqdim etdiyi anlayış müqavilənin xüsusiyyətlərini özündə əks etdirir.

Azadlıq sözünün mənasına gəldikdə isə, qeyd etməliyik ki, azadlıq anlayışı ilə bağlı bir çox mübahisələr aparılmışdır. Pozitiv və neqativ azadlıq anlayışları hüquq ədəbiyyatlarında fərqləndirilmişdir. Azadlıq hüququ Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsi, Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsində qeyd edilmişdir.

Hüquq elmində prinsiplərin özünəməxsus yeri və rolu vardır. Hər bir hüquq sahəsində olduğu kimi mülki hüquqda da prinsiplər ana xətt olaraq keçməkdədir. Hüququn ümumi prinsipləri ilə yanaşı sahəvi prinsipləri də vardır. Mülki hüququn özünəməxsus prinsipləri vardır. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 6-cı maddəsində mülki hüququn prinsipləri qeyd edilmişdir. Bu prinsiplər içərisində *müqavilə azadlığı prinsipi* mühüm yer tutur. Hüquqi və fiziki şəxslər mülki hüquqi münasibətlər zamanı müqavilə azadlığı prinsipinə əməl etməlidirlər. Müqavilə azadlığı prinsipinin anlayışına toxunan zaman vacib bir nüansı qeyd etmək lazımdır. Belə ki, məhz müqavilə hüququ mülki hüququn ən önəmli yarımsahələrindən biri kimi mühüm əhəmiyyətə malikdir.

Müqavilə azadlığı konsepsiyasının tarixçəsinə nəzər yetirdikdə Roma Müqavilə hüququnu xüsusi olaraq vurğulamalıyıq. Müqavilə azadlığının nəzəri əsasları başlanğıcını Roma müqavilə hüququndan götürmüşdür. Lakin Roma hüququnda müqavilə azadlığı ilə bağlı məsələlər tənzimlənmirdi. Bunun başlıca səbəbi onda idi ki, ius Civil də müqavilənin bağlanması ilə bağlı tərəflərin razılığı mühüm amil idi.

Lakin Roma müqavilə hüququna əsasən, müqaviləni bağlamaq üçün təkcə tərəflərin müəyyən məqsədə gəlmələri kifayət etmir. Həmçinin tərəflərin iradə sərbəstliyi olmalıdır. İradə xaricdə bəyan edilməli, yəni xarici ifadə forması olmalıdır. Müqavilə azadlığı nəzəriyyəsinə yanaşmaq üçün onun tarixi inkişaf yoluna nəzər yetirilməsi mühüm olan məsələlərdəndir. Ən qədim Roma hüququ müqavilələrinin təfsir olunması zamanı tərəfin iradəsinin xarici ifadəsi əsas götürülürdü. Məhz müqavilə azadlığı nəzəriyyəsi başlanğıcını buradan götürmüşdür [4].

## *II. Müqavilə azadlığı ilə bağlı nəzəriyyələr*

Müqavilə azadlığı ilə bağlı bir çox geniş nəzəriyyələr yayılmışdır. Nəzəriyyələrin hər biri ayrı-ayrılıqda müqavilə və azadlıq anlayışları arasındakı əlaqəni istər hüquqi, istərsə də fəsləfi baxımdan şərh edir. Alman mülki hüquq ədəbiyyatlarında müqavilə azadlığı ilə bağlı 2 nəzəriyyə geniş yayılmışdır. Formal-fərdi və material-teoloji nəzəriyyələr olaraq qəbul edilir. Qeyd etdiyimiz nəzəriyyələri ayrı-ayrılıqda nəzərdən keçirməyimiz və Azərbaycan Mülki hüququnun hansı nəzəriyyəni mənimsədiyini vurğulamaq daha məqsədəuyğundur.

*2.1. Formal-fərdi nəzəriyyə.*

Formal-fərdi nəzəriyyənin tərəfdarlarına görə, müqavilə azadlığı prinsipi ilə bağlı qaydaları xüsusi hüququn hər bir subyekti özü müəyyən etməlidir. Yəni burada əsas rolu fərdi olaraq müəyyən etmə oynayır. Bu nəzəriyyə fərdin məqsədlərinə uyğun gələn şəkildə qəbul edilən azadlıq anlayışına əsaslanır. İmmanuel Kantın təbirincə desək, "Kimsə məni öz qəbul etdiyi şəkildə və ya üsullarla xoşbəxt olmağa məcbur edə bilməz, amma hər kəs öz xoşbəxtliyini özünə yaxşı şəkildə görünən yolda və ya üsullarla axtarmaq hüququna malikdir" [ 5, s. 3].

*2.2. Material-teoloji nəzəriyyə.*

Formal-fərdi nəzəriyyədən fərqli olaraq material-teoloji nəzəriyyənin tərəfdarlarına görə, müqavilə azadlığı ilə bağlı qaydaları fərdlər müəyyən etmirlər. Bu nəzəriyyə müqavilə azadlığına material yanaşmanı özündə əks etdirir. Müqavilə azadlığının müəyyən edilməsi son məqsədlərə xidmət etməlidir, yəni tək fərdlərə xidmət etməməlidir [ 5, s. 4].

Mövqeyimizi yuxarıdakı iki fərqli nəzəriyyənin təhlilindən sonra bildirməmiz məqsədəuyğundur. Müqavilə azadlığı mülki hüququnun, ümumiyyətlə xüsusi hüququn ana, prioritet prinsipidir. Bu prinsip həm ayrı-ayrı fərdlərə, həm də ümumilikdə cəmiyyətin maraqlarına xidmət edir. AR MM-nin qəbul etdiyi nəzəriyyə material-teoloji konsepsiyanın müddəalarıdır. Belə ki, MM–nin 6.3-cü maddəsinə əsasən, dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin sağlamlığının və mənəviyyatının qorunması, digər şəxslərin hüquq və azadlıqlarının, şərəfinin və təmiz adının müdafiəsi üçün zəruri olduqda mülki hüquqlar yalnız qanunla məhdudlaşdırıla bilər. Göründüyü kimi, ayrı-ayrı fərdlərin mənafelərindən daha çox cəmiyyətin mənafeləri daha üstündür. Müqavilə azadlığı yalnız fərdi seçimlərə yönəlməməlidir, ümumilikdə geniş məqsədlərə xidmət etməlidir. Tərəfdarı olduğumuz nəzəriyyə məhz material-teoloji nəzəriyyədir.

Müqavilə azadlığı ilə bağlı digər nəzəriyyə müsbət və mənfi müqavilə azadlığı ilə bağlıdır. Hər iki nəzəriyyənin özünəməxsus xüsusiyyətləri vardır. Bu nəzəriyyələr də alman hüquq ədəbiyyatlarında qəbul olunan nəzəriyyələrdir [5].

*2.3. Müsbət müqavilə azadlığı nəzəriyyəsi.*

Qeyd etdiyimiz nəzəriyyəyə əsasən, müqavilənin tərəfləri qanunauyğun müqaviləni qəbul edib bağlaya bilər. Nəzəriyyənin tərəfdarlarına görə, müqavilə azadlığı bəzi hallarda məhdudlaşdırıla bilər. Müqavilə azadlığının məhdudlaşdırılması cəmiyyətin mənafeyinin, fərdlərin hüquq və qanuni mənafelərinin qorunması üçün məhdudlaşdırıla bilər.

*2.4. Mənfi müqavilə azadlığı nəzəriyyəsi.*

Sözügedən nəzəriyyə müqavilənin tərəflərinin müqaviləni bağlamaqdan imtina etmələri ilə bağlıdır. Bu nəzəriyyənin tərəfdarlarına görə, müqavilənin tərəfləri istədikləri zaman müqaviləni bağlamaqdan imtina etmək azadlığına malikdirlər. Qeyd etdiyimiz nəzəriyyə fərdlərin sərbəstliyini və şəxsi seçim azadlıqlarını qorumağı hədəfləmişdir.

*III. Müqavilə azadlığının prinsipləri*

Müqavilə azadlığı nəzəriyyəsi bir sıra prinsipləri özündə ehtiva edir. Belə ki, *müqavilə bağlama azadlığı, müqavilənin məzmununu sərbəst müəyyən etmə azadlığı, müqavilə tərəflərini seçmə azadlığı, müqaviləni xitam etdirmək azadlığı* prinsiplərini əhatə edir. Qeyd etdiyimiz prinsiplərin hər birini AR MM baxımından nəzərdən keçirməyimiz məqsədəuyğundur.

*A) Müqavilə bağlamaq və Müqavilə tərəfini seçmək azadlığı.*

AR MM 390.1-ci maddəsinə əsasən, fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya bilərlər. Müqavilə azadlığı nəzəriyyəsinin ana qayəsi də məhz müqavilə bağlamaq azadlığı ilə bağlıdır. Fiziki və ya hüquqi şəxslər istədikləri şəxslərlə müqavilə bağlaya bilərlər. Qanunverici AR MM 390.1-ci maddəsində müqavilənin bağlanması ilə bağlı məhdudlaşdırma təsbit etmişdir. Belə ki,qeyd edilən maddədə *"onlar bu məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər"* ifadəsi sərhədlərin müəyyən edilməsinə xidmət edir.

*B) Müqavilənin məzmununu sərbəst müəyyən etmək azadlığı.*

AR MM 390.1-ci maddəsinə əsasən, fiziki və hüquqi şəxslər azad surətdə müqavilənin məzmununu müəyyən edə bilərlər. Mülki hüququn vacib yarımsahələrindən olan müqavilələrin məzmunu dedikdə, müqavilədə nəzərdə tutulan öhdəliklər, müqavilənin şərtləri, müddəti və digər elementləri aid edilir, bunlar ümumilikdə müqavilənin elementləri adlanır. Həmçinin MM 390.5-ci maddəsində müqavilənin şərtlərinin müəyyən edilməsi ilə bağlı qeyd edilir ki, tərəflər istədikləri şəkildə müqavilənin şərtlərini müəyyən edə bilərlər, lakin bu şərtlərin məzmunu Mülki məcəlləyə zidd ola bilməz.

*C) Müqaviləni xitam etdirmək azadlığı.*

Müqavilənin tərəfləri müqavilənin məzmunu ilə bağlı qaydaları müəyyən edə bilərlər, həmçinin buraya müqavilənin müddəti ilə bağlı məsələlər aid edilir. Belə ki, müqavilənin tərəfləri müqaviləni dəyişdirmək, müqaviləni xitam etdirmək hüququna malikdirlər. AR MM-də nəzərdə tutulan ayrı-ayrı müqavilələrin xitamı ilə bağlı tənzimləmələrdə də bu azadlığın tətbiqi məsələsini aydın şəkildə görmək mümkündür. Müqavilə azadlığı prinsipi iradə azadlığı prinsipinin hüquqdakı təzahürü kimi meydana gəlmişdir. Məhz müqavilənin tərəflərin azad iradələri istiqamətində formalaşması mühüm məsələdir. Bu səbəbdən müqavilənin bağlanması, dəyişdirilməsi və ya onun xitam olunması zamanı tərəflərin azad iradələrinə təsir edən hər hansı amil tərəflərin iradələrinə, sonda da müqavilə azadlığı prinsipinə təsir göstərir.

Yuxarıda qeyd etdiyimiz müqavilə azadlığı prinsipinə daxil olan azadlıqların hər biri müqavilə azadlığı nəzəriyyəsinin qollarına daxil edilir. Çünki müqavilə azadlığı prinsipi bir bütündür, bu azadlıqlar isə onun daxili təzahürləridir. Məhz hüquq ədəbiyyatlarında bu azadlıqların hər biri müqavilə azadlığı adı altında qeyd edilmişdir. Bunun bariz nümunəsini də AR MM 390-cı maddəsində görmüş olduq.

### *IV. Müqavilə azadlığı prinsipi: xarakterik xüsusiyyətləri*

AR Mülki Məcəlləsinin 390-cı maddəsində qanunverici xüsusi olaraq müqavilə azadlığını qeyd edir. Məhz maddədə qeyd edilir ki, fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya bilərlər və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Məhz müqavilə azadlığı istehsalçı ilə istehlakçı arasında bağ rolunu oynayır. Hüquq ədəbiyyatlarında müqavilə azadlığını hüquqi kateqoriya kimi nəzərdən keçirirlər [2, s. 653]. İstehsalçı ilə istehlakçı arasında işgüzar əlaqələrin yaranması, tələb və təklifin təmin edilməsi üçün müqavilə azadlığı əsas rol oynayır.

Mülki hüquq nəzəriyyələrindən də bilindiyi kimi, müqavilənin əsas və əlavə şərtləri vardır. Yuxarıda da qeyd etdiyimiz kimi məhz mülki hüquq subyektləri müqavilənin əlavə şərtlərini müəyyən etməkdə sərbətdirlər. Müqavilə bağlamaq şəxsin vəzifəsi deyil, hüququdur. Bu, birbaşa qanunda nəzərdə tutulmuşdur. Publik hüquqla xüsusi hüquq arasında fərqlərdən biri məhz bundadır ki, publik hüquqda tərəflərin arasında bərabərlik yoxdur, mülki hüquq isə xüsusi hüquq sahəsi olduğu üçün bu sahədə olan subyektlər bərabərtərəfli subyektlərdir. Bütün bunlara əsasən, şəxs öz iradəsinə uyğun olaraq müqavilə bağlaya da bilər, bağlamaya da bilər.

Şəxsin müqavilə bağlamaq istəyi mücərrəd xarakter daşıya bilməz [2, s. 653]. Məsələn, şəxs özünəməxsus əmlakı başqa şəxsə bağışlaya bilər. Bu zaman tərəflər arasında bağışlama müqaviləsi imzalanacaqdır. Göründüyü kimi, bu tərəflərin iradə sərbəstliyi əsasında müəyyən edilir.

Türk hüquq ədəbiyyatlarında da məhz iradə sərbəstliyi prinsipi ilə müqavilə azadlığı prinsipi qarşılıqlı nəzərdən keçirilir [8, s. 3]. Qeyd etdiyimiz kimi şəxs müqavilə bağlamaqla bağlı hüququnu realizə etmək istədikdə özünün seçdiyi tərəflə müqaviləni bağlaya bilər. Məhz türk hüquq ədəbiyyatı müqavilə azadlığı prinsipini liberalizmin bir hissəsi kimi vurğulayır [8, s. 4].

Müqavilə azadlığı prinsipi 2 halda məhdudlaşdırıla bilər:

**Mülki Məcəllədə nəzərdə tutulduğu halda;*

**Şəxsin könüllü götürmüş olduğu öhdəlikdən irəli gəldikdə* [ 2, s. 654].

Mülki Məcəllənin bir sıra maddələri müqavilənin bağlanmasının məcburi halını qeyd edir. Məsələn, AR MM 956-cı maddəsində müqavilənin bağlanmasının məcburi halı nəzərdə tutulmuşdur. Belə ki, bank bank hesabı açılması ilə bağlı tərəflə müqavilə bağlamalıdır.

İradə sərbəstliyi prinsipində olduğu kimi müqavilə azadlığı prinsipinin də bir sıra fəlsəfi cəhətləri vardır. Müqavilənin bağlanması ilə bağlı ideyanın olması müqavilə azadlığı prinsipinin fəlsəfi əsasında dayanır. Yuxarıda da vurğuladığımız kimi tərəf istədiyi şəxslə istədiyi müqaviləni bağlaya bilər. AR MM 390.3-cü maddəsində qanunverici qeyd edir ki, müqavilə bağlamaq üçün şəxs məcbur edilə bilməz. Göründüyü kimi, prinsipin ana xəttini məhz insanın varlığı və sərbəstliyi təşkil edir [8, s. 4].

Həmçinin qanunverici MM 390-cı maddəsində vurğulayır ki, tərəflər müxtəlif müqavilələrin ünsürlərini əhatə edən müqavilə bağlaya bilərlər. Yəni

tərəflər qarışıq müqavilə bağlamaq hüququna da malikdirlər. Qarışıq müqavilə dedikdə, Mülki Məcəllədə nəzərdə tutulan müxtəlif müqavilələrin ünsürlərini əhatə edən müqavilə nəzərdə tutulur [ 2, s. 654]. Məsələn, tərəflər həm daşıma, həm də alqı-satqı müqaviləsinin müddəalarını özündə əks etdirən qarışıq müqavilə bağlaya bilərlər. Bu zaman həm alqı-satqı, həm də daşıma müqaviləsinin ünsürləri bu qarışıq müqavilədə öz əksini tapacaqdır.

Müqavilənin şərtləri ilə bağlı MM 390-cı maddəsi müəyyən qayda nəzərdə tutur. Belə ki, tərəflər müqavilənin şərtlərini öz istəklərinə uyğun müəyyən edə bilərlər. Lakin bu şərtlər Mülki Məcəllənin müəyyən etdiyi imperativ şərtlərə əməl etməklə həyata keçirilməldir.

Türkiyə Öhdəliklər Qanunun 26-cı maddəsinin müddəasına uyğun olaraq, tərəflər qanunla müəyyən edilmiş hədlər daxilində müqavilənin məzmununu müəyyən etmək azadlığına malikdirlər. Məhz göründüyü kimi müqavilənin məzmunu qanun səviyyəsində tərəflərin iradə sərbəstliyinə əsaslanır. Azərbaycan Respublikasının Mülki Məcəlləsində də eyni xarakterli müddəa qeyd edilmişdir. Müqavilənin şərtləri Mülki Məcəllənin imperativ xarakterli normasında nəzərdə tutulmuşdursa, tərəflər həmin şərtləri dəyişdirə bilməzlər. Lakin qəbul edilməli olan şərtlər Mülki Məcəllənin dispozitiv xarakterli normasında nəzərdə tutulmuşdursa, tərəflər həmin şərtlərdən fərqli şərtlər müəyyən edə bilərlər.

Müqavilə azadlığı prinsipinin fəlsəfəsində həmçinin risk məsələsi də dayanır. Müxtəlif hüquq sistemlərində müqavilədən əvvəl məsuliyyət məsələsi də əhəmiyyət daşıyır. Aleator nəzəriyyəsinə əsasən, hər bir tərəf danışıqlarla bağlı öz risklərini daşıyır, hər ikisi bu riskləri qəbul edərək müqavilə bağlayır. Bu gün müasir müqavilə hüququ danışıqları belə ayrıca müqavilənin yaradılması proseduru kimi tanıyır. Məhz tərəflər arasında tarazlıq tapmaq lazımdır. Çünki detallı şəkildə işləmək demək olar ki, mümkün deyil. Tərəflər qanunvericiliyə uyğun olaraq müddəaları nəzərdən keçirməlidilər [7,s. 67].

Türkiyə Öhdəliklər Qanunun 27.1-ci maddəsində qanunverici qeyd edir ki, hər hansı bir hüquqi qaydada açıq şəkildə göstərilməsə də, cəmiyyətin ümumi anlayışına zidd olan müqavilələr tamamilə etibarsız sayılırlar.

Məhz Türkiyə qanunvericiliyində əksini tapan bu müddəa bilavasitə müqavilə azadlığı prinsipinin fəlsəfi mahiyyətini özündə əks etdirir. Göründüyü kimi müqavilə azadlığı prinsipinin əsasında şəxs, onun hüquqları və cəmiyyət dayanır.

Qeyd etmək lazımdır ki, müqavilə azadlığı prinsipi müəyyən hallarda məhdudlaşdırıla bilər. Bununla bağlı bir sıra müddəaların istər nəzəri, istərsə də təcrübi cəhətdən araşdırılması mühümdür. AR MM 390-cı maddəsində müqavilə azadlığı prinsipinin tətbiqi zamanı mühüm olan məsələ məhdudlaşdırma məsələsi qeyd edilmişdir.

### *V. Müqavilə bağlamaq məcburiyyəti müddəasının müqavilə azadlığı prinsipinə təsiri*

AR MM-də müqavilə bağlamaq məcburiyyəti başlığı altında hər hansı müddəa nəzərdə tutulmamışdır. Amma bəzən təcrübədə müqavilə bağlamaq

məcburiyyəti özünü göstərir. AR Konstitusiyasının 29-cu maddəsi mülkiyyət hüququ adlanır. Məhz maddədə mülkiyyət hüququnun məhdudlaşdırılması ilə bağlı müddəalar əks olunmuşdur. Belə ki, dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

AR MM-də nəzərdə tutulan bir sıra müqavilələrin bağlanması zamanı bəzi hallarda müqavilə bağlama məcburiyyəti müddəası gündəmə gəlir. Buna nümunə olaraq "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" AR Qanunun 35-ci maddəsini qeyd edə bilərik. Belə ki, sözügedən maddədə torpaqların alınması zamanı tərəflər arasında bağlanan alğı-satqı müqaviləsi ilə bağlı tənzimlənmə nəzərdə tutulmuşdur.

Bəzi müəlliflər müqavilə bağlamaq məcburiyyəti müddəasını müqavilə azadlığı nəzəriyyəsinə zidd olduğunu qeyd edirlər. Prof.Dr. Hasan Ayrancının görüşünə görə, müqavilə bağlamaq məcburiyyətinin iki funkiyası vardır [ 6, s. 234].

Birinci funksiya rəqabət məhdudiyyəti olan bazarlarda *güc tarazlığını təmin etmək* funksiyasıdır**.** Məsələn, hər hansı şəxs məhsulun satışı üzrə və ya xidmətin göstərilməsi üzrə bazarda gücə malikdir. İstədiyi şəkildə müqavilə bağlamasının qarşısını almaq üçün müqavilə bağlamaq məcburiyyəti prinsipini özünü göstərir.

İkinci funskiya isə rəqabətlilik təmin edilən hallarda fəaliyyət göstərən *tolerantlıq* funskiyasıdır. Məsələn, hər hansı kiçik müəssisə daha iri müəssisə qarşısında gücsüzləşərsə, bu zaman müqavilə bağlamaq məcburiyyəti hərəkətə keçir. Bu sosial ədaləti bərpa etmək üçün istifadə edilir.

Göründüyü kimi, müqavilə bağlamaq məcburiyyəti prinsipi də sosial ədalətin bərqərar olmasında, bazarda rəqabətin təminat altına alınmasında mühüm rol oynayır.Müqavilə bağlamaq məcburiyyəti bəzi hallarda nəzərdə tutula bilər. Yuxarıda bu halları qeyd etdik. Bu səbəbdən müqavilə bağlamaq məcburiyyəti müqavilə azadlığı prinsipinə birbaşa zidd deyil, çünki cəmiyyətin maraqlarının təmin edilməsində, sosial ədalətin bərqərar olmasında, ayrı-ayrı fərdlərin qanuni mənafelərinin qorunmasında müqavilə bağlamaq məcburiyyəti hərəkətə keçir.

### *VII. Vicdanlılıq prinsipinin müqavilə azadlığı prinsipi ilə qarşılıqlı əlaqəsi*

AR MM-nin 6-cı maddəsində mülki qanunvericiliyin prinsipləri qeyd edilmişdir. Qeyd etdiyimiz maddədə vicdanlılıq prinsipi qeyd edilməsə belə, sözügedən prinsip mülki hüququn əsas prinsiplərindən biridir. Vicdanlılıq prinsipinin xüsusiyyətləri, hüquqi təhlili ayrı bir mövzunun predmetidir. Lakin biz bu hissədə yalnız vicdanlılıq prinsipi ilə müqavilə azadlığı prinsipinin qarşılıqlı əlaqəsini qeyd edəcəyik.

AR MM-də vicdanlılıq prinsipinin anlayışı, xüsusiyyətləri qeyd edilməsə belə, hüquq ədəbiyyatlarına dayanaraq vicdanlılıq prinsipinin xüsusiyyətlərini qeyd etmək lazıımdır. AR MM-nin 5.3-cü maddəsində qanunverici qeyd

etmişdir ki, mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar. Belə ki, hər kəs öhdəliklərini yerinə yetirirkən, fəaliyyət göstərərkən vicdanlılıq prinsipinə əməl etməlidir. Türk və İsveç mülki hüquq ədəbiyyatlarında vicdanlılıq prinsipi dürüst davranma prinsipi olaraq qeyd edilmişdir. Dürüst davranma prinsipi mahiyyət etibarı ilə vicdanlılıq prinsipi ilə eynidir.

Bu həm də müqavilənin bağlanmasına, müqavilə öhdəliklərinin yerinə yetirilməsinə, həmçinin də müqavilənin xitam etdirilməsinə aid edilir. Müqavilənin bağlanması zamanı tərəflər vicdanlılıq prinsipinə əməl etməlidirlər. Hər hansı müqavilə bağlanmazdan əvvəl tərəflər arasında görüşmələr ola bilər. Bu görüşmələr zamanı müqavilənin müzakirəsi ilə bağlı tərəflər vicdanlılıq prinsipinə əməl etməlidirlər. Latın dilində culpa in contrahendo adlandırılan müqavilənin bağlanmasından əvvəl məsuliyyət vicdanlılıq prinsipi ilə qarşılıqlı əlaqədədir. Yəni tərəflər müqavilə danışıqlarını belə vicdanla həyata keçirməlidirlər [ 11, s. 278].

Müqavilənin bağlanması zamanı da tərəflər həm müqavilə azadlğı prinsipinə, həm də vicdanlılıq prinsipinə əməl etməlidirlər. Türkiyə Öhdəliklər Qanunun 1-ci maddəsində qeyd edilir ki, müqavilə tərəflərin qarşılıqlı və müəyyənləşdirilmiş iradə sərbəstliyinə əsasən bağlanılır. Göründüyü kimi, müqavilə bağlanan zaman tərəflər iradəcə sərbəstdirlər və vicdanlılıq prinsipinə əsaslanaraq müqaviləni bağlamalıdırlar.

Tərəflər müqavilənin məzmununu müəyyən edərkən, müqaviləni xitam etdirərkən belə vicdanlı davranmalıdırlar. Vicdanlılıq prinsipi məhz elə bu kimi hallarda müqavilə azadlığı prinsipi ilə qarşılıqlı əlaqədədir.

## *VI. Nəticə*

Yuxarıda qeyd etdiklərimizi aşağıdakı şəkildə ümumiləşdirsək daha məqsədəuyğundur:

1. Müqavilə azadlığı həm bir prinsipdir, həm də mühüm hüquqi kateqoriyadır. Müqavilə azadlığı iqtisadi münasibətlərin çevik tənzimlənməsində mühüm əhəmiyyətə malikdir. Müqavilə azadlığı prinsipinin olması müqavilə tərəflərini qanunvericiliyin tələblərindən yan keçməklə müqavilənin tələblərinin həyata keçirilməsini nəzərdə tutmur [2, s. 655].

2. Türkiyə Öhdəliklər Qanununda nəzərdə tutulan əxlaqi xüsusiyyətləri özündə əks etdirən müddəanın bizim qanunvericilikdə, məhz müqavilə azadlığı ilə bağlı AR MM 390-cı maddəsində əks olunması məqsədəuyğun olardı. Belə ki, müqavilə azadlığının sərhədləri qanunverici tərəfindən müəyyən edilsə də, həmin müddəaya əlavə olaraq aşağıdakı formada müddəanın əlavə edilməsi daha məqsədəuyğun olardı:

*Tərəflər arasında müqavilə azadlığı prinsipinə zidd olan, cəmiyyətə, insan hüquq və azadlıqlarına ziyan vuran və ya ziyan vurma təhlükəsi yaradan istənilən müqavilə və ya müqavilə şərti etibarsızdır.*

Qeyd etdiyimiz müddəanın bilavasitə müqavilə azadlığı prinsipinə xas olan maddədə əksini tapması tərəflər arasında müqavilə hüquq münasibətlərinin tənzimlənməsində əhəmiyyətli rol oynayacaqdır.

3. Müqavilə azadlığı prinsipi ilə bağlı olan formal-fərdi və material-teoloji nəzəriyyələr bu prinsipin nəzəri əsaslarını daha da qüvvətləndirir. Məhz Azərbaycan Respublikasının mülki qanunvericiliyinin mənimsədiyi nəzəriyyə material-teoloji nəzəriyyədir. Fikrimizcə, bu nəzəriyyənin mülki hüquq ədəbiyyatlarında əksini tapması məqsədəmüvafiq olardı.

4. Müqavilə bağlamaq məcburiyyəti müddəasının Azərbaycan Respublikası Mülki Məcəlləsində təsbit edilməsi qanunvericiliyin inkişafı istiqamətində mühüm addım ola bilər. Müqavilə bağlamaq məcburiyyəti müqavilə azadlığı nəzəriyyəsi ilə qarşılıqlı əlaqədədir.

5. Müqavilə azadlığı prinsipi ilə vicdanlılıq prinsipi qarşılıqlı əlaqədədir. Müqavilə bağlanana qədər aparılan danışıqlar, müqavilə bağlanarkən, müqavilənin məzmunun müəyyən edilməsində, xitam etdirilməsində müqavilə azadlığı prinsipi ilə yanaşı vicdanlılıq prinsipi mühüm rol oynayır.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Artunch Ç. Freedom of Contract as a Manifestation of Private Autonomy in German Civil Law. Annales XL, N. 57, 2008, P.295-320 *(in Germany / Artunch Ç. Die Vertragsfreiheit als Ausdruck der Privatautonomie im deutschen Zivilrecht. Annales XL, N. 57, 2008, S. 295-320).*
2. Asgarov.İ.G. Commentary on the Civil Code of the Republic of Azerbaijan -Baku: Qanun Publishing House, -2014. – 948 p *(in Azerbaijani / Əsgərov İ.Q. Azərbaycan Respublikası Mülki Məcəlləsinə Şərhlər. Bakı: Qanun Nəşriyyatı, 2014. – 948 s.).*
3. Constitution of the Republic of Azerbaijan, 1995 *(in Azerbaijani / Azərbaycan Respublikasının Konstitusiyası, 1995).* URL: https://e-qanun.az/framework/897 (last access: 05.08.24).
4. Civil Code of the Republic of Azerbaijan, 1999 *(in Azerbaijani / Azərbaycan Respublikasının Mülki Məcəlləsi).* URL: https://e-qanun.az/framework/46944 (last access: 03.08.24).
5. Freedom of Contract and the Principle of Equal Treatment/ URL: https://opus.bibliothek.uni-augsburg.de/opus4/files/32910/32910.pdf. (last access: 07.08.24).
6. Ayrancı, Hasan. Obligation to Conclude a Contract *(in Turkish / Ayrancı, Hasan. Sözləşmə Bağlama Öhdəliyi).* URL: https://dergipark.org.tr/tr/download/articlefile/628949](https://dergipark.org.tr/tr/download/article-file/628949 (last access: 05.08.24).)
7. Irakli, T. The Principle of Freedom of Contract, Pre-Contractual Obligations: Legal Review of English, EU, and US Law. P.62-72.

URL: https://eujournal.org/index.php/esj/article/view/8836/8400 (last access: 06.08.24).
8. Korkmaz, F. An Exception to the Principle of Freedom of Contract as Pre-Contractual Obligations. KTO Karatay University. Law Review., V.01, N. 2, 2016. P. 281-296 *(in Turkish / Korkmaz, F. Sözleşme Özgürlüğü İlkesine Bir İstisna Olarak Sözleşme Öncesi Yükümlülükler. KTO Karatay Üniversitesi Hukuk Dergisi, C. 01, S. 2, 2016, S. 281-296.).*
9. Mehdiyev, F. Khuliyev, E. Theory of Law. Textbook. –Baku: Qanun Publishing House, -2023. - 472 p *(in Azerbaijani / Mehdiyev F., Xuliyev E. Hüquq Nəzəriyyəsi. Dərslik. Bakı: Qanun Nəşriyyatı, 2023. - 472 s.).*
10. Movsumov, M. Civil Procedural Law. Textbook. –Baku: Qanun Publishing House, -2011. -416 p *(in Azerbaijani / Mövsümov M. Mülki Prosessual Hüquq. Dərslik. Bakı: Qanun Nəşriyyatı, 2011. - 416 s.).*
11. Oguzman, Kemal / Barlas, Nami: Civil Law (Introduction, Sources, and Basic Concepts), 20th Edition, -2014.-278 p *(in Turkish / Oğuzman, Kemal / Barlas, Nami: Medeni Hukuk (Giriş, Kaynaklar ve Temel Kavramlar), 20. Baskı, 2014. - 278 s.).*
12. Shahin, I. Freedom of Contract and the Limits of Freedom of Contract/ Graduate Thesis/ - Bahçeşehir University Institute of Social Sciences, - 2008, - 125 p *(in Turkish / Şahin, İ. Sözleşme Özgürlüğü ve Sözleşme Özgürlüğünün Sınırları / Yüksek Lisans Tezi / Bahçeşehir Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2008, - 125 s.).*
13. The Law of the Republic of Azerbaijan on the Acquisition of Lands for State Needs, 2010 *(in Azerbaijani / Azərbaycan Respublikasının Dövlət Ehtiyacları Üçün Torpaqların Alınması Qanunu, 2010.).* URL: https://e-qanun.az/framework/19613 (last access: 02.08.24).
14. Yusifov, S. M. Civil Law: General Part. Textbook -Baku: Qanun Publishing House, -2013. - 492 p *(in Azerbaijani / Yusifov, Ş. M. Mülki Hüquq: Ümumi Hissə. Dərslik. Bakı: Qanun Nəşriyyatı, 2013. - 492 s.).*

## Freedom of contract: development between law and freedom

RAMAZAN ASGARXANOV*, SADIG MAHARRAMOV**

**Abstract**

*The article provides a legal and philosophical analysis of the principle of freedom of contract, one of the fundamental principles of civil law. The authors examine freedom of contract not only as a principle but also as a theory. In previous articles on freedom of contract, the concept has been approached merely as a principle, neglecting its philosophical and*

* Master's Student / Ankara University Faculty of Law / email: ramazanasgerkhanov@gmail.com
** Court Hearing Secretary / Khankendi City Court / email: smeherremov206@gmail.com

*historical perspectives. Originating from Roman contract law, the theory of freedom of contract holds both theoretical and practical significance. Various theories on freedom of contract have been highlighted in civil law literature, and the article places special emphasis on their theoretical-legal analyses. The civil law system of the Republic of Azerbaijan is increasingly aligning with contemporary demands. Therefore, the article offers a modern analysis of the principle of freedom of contract. The civil legislation of the Republic of Azerbaijan does not include any provisions under the heading "obligation to contract." However, the article discusses the mutual interaction and impacts of the obligation to contract and the principle of freedom of contract.*

**Keywords:** *Roman contract law, principle of freedom of contract, formal-individual theory, material-teleological theory, obligation to contract.*

**Свобода договора: развитие между правом и свободой**

РАМАЗАН АСГАРХАНОВ*, САДЫГ МЕХЕРРЕМОВ**

**Резюме**

*В статье проведен юридический и философский анализ принципа свободы договора, одного из основных принципов гражданского права. Авторы рассматривают свободу договора не только как принцип, но и как теорию. В статьях, посвященных свободе договора, данное понятие часто рассматривается только как принцип, при этом философские и исторические перспективы остаются вне поля зрения. Теория свободы договора, берущая свое начало от римского права, имеет как теоретическое, так и практическое значение. В литературе по гражданскому праву приведены различные теории, касающиеся свободы договора, и в статье особо подчеркиваются теоретико-правовые анализы этих теорий. Гражданская правовая система Азербайджанской Республики уже соответствует требованиям современности. Поэтому в статье также проводится современный анализ принципа свободы договора. В гражданском законодательстве Азербайджанской Республики нет положения, которое бы обязывало заключать договор. Однако в статье рассматривается взаимосвязь и влияние принципа свободы договора и обязательности заключения договора.*

**Ключевые слова:** *римское договорное право, принцип свободы договора, формально-индивидуальная теория, материально-теологическая теория, обязательность заключения договора.*

**Redaksiyaya daxil olma tarixi: 17.08.2024**
**Çapa qəbul: 24.12.2024**

* Магистрант / Университет Анкары, юридический факультет / email: ramazanasgerkhanov@gmail.com

** Секретарь судебного заседания / Ханкендинский городской суд / email: smeherremov206@gmail.com